**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№** 007/413

**Bakı şəhəri** "31" yanvar **2025-ci il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2024-2025-ci illər üzrə rəsmi məlumatlarına əsasən, Şotlandiyanın Aberdinşir (Aberdeenshire) inzibati ərazi vahidində, Orkney (Orkney) adalarında, Peru Respublikasının Lambaeke (Lambayeque), Lima (Lima), İka (Ica) regionlarında, Xorvatiya Respublikasının Brodsko-Posavska (Brodsko-Posavska) inzibati ərazi vahidində, Kamboca Krallığının Kampot (Kampot), Battambanq (Battambang) əyalətlərində, İtaliya Respublikasının Apuliya (Apulia) regionunda, Litva Respublikasının Mariyampol (Marijampole) dairəsində, Amerika Birləşmiş Ştatlarının Oreqon (Oregon), Yuta (Utah) ştatlarında **yüksək patogen quş qripi**, Rusiya Federasiyasının Vladimir (Vladimir) vilayətində **Nyukasl**, Çin Xalq Respublikasının Çonqqinq (Chongqing) əyalətində isə qeydə alınmış **dabaq** xəstəlikləri aradan qaldırılıb.

Belə ki, aradan qaldırılmış xəstəliklər üzrə, ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və xəstəlik baş vermiş ərazilərdə epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəliklərdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə adıçəkilən ölkələrin qeyd olunan inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatları və "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi" nəzərə alınaraq, sözügedən xəstəliklərin baş verməsinə görə Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**1.1. Yüksək patogen quş qripi xəstəliyi üzrə:**

**1.1.1.** 2022-ci il 30 mart tarixli 021/196 nömrəli qərarla Şotlandiyanın Aberdinşir inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

**1.1.2.** 2022-ci il 4 avqust tarixli 044/219 nömrəli qərarla Şotlandiyanın Orkney adalarına tətbiq edilmiş məhdudiyyət;

**1.1.3.** 2022-ci il 13 dekabr tarixli 072/247 nömrəli qərarla Peru Respublikasının Lambaeke regionuna tətbiq edilmiş məhdudiyyət;

**1.1.4.** 2022-ci il 26 dekabr tarixli 074/249 nömrəli qərarla Peru Respublikasının Lima regionuna tətbiq edilmiş məhdudiyyət;

**1.1.5.** 2023-cü il 14 sentyabr tarixli 040/291 nömrəli qərarla Peru Respublikasının İka regionuna tətbiq edilmiş məhdudiyyət;

**1.1.6.** 2023-cü il 21 noyabr tarixli 055/306 nömrəli qərarla Xorvatiya Respublikasının Brodsko-Posavska inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

**1.1.7.** 2023-cü il 29 noyabr tarixli 058/309 nömrəli qərarla Kamboca Krallığının Kampot əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.1.8.** 2023-cü il 13 dekabr tarixli 064/315 nömrəli qərarla Kamboca Krallığının Battambanq əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.1.9.** 2023-cü il 25 dekabr tarixli 067/318 nömrəli qərarla İtaliya Respublikasının Apuliya regionuna və Litva Respublikasının Mariyampol dairəsinə tətbiq edilmiş məhdudiyyət;

**1.1.10.** 2024-cü il 5 noyabr tarixli 071/391 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Oreqon ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.1.11.** 2024-cü il 23 dekabr tarixli 080/400 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Yuta ştatına tətbiq edilmiş məhdudiyyət.

**1.2. Nyukasl xəstəliyi üzrə:**

**1.2.1.** 2022-ci il 30 noyabr tarixli 069/244 nömrəli qərarla Rusiya Federasiyasının Vladimir vilayətinə tətbiq edilmiş məhdudiyyət.

**1.3. Dabaq xəstəliyi üzrə:**

**1.3.1.** 2023-cü il 18 dekabr tarixli 065/316 nömrəli qərarla Çin Xalq Respublikasının Çonqqinq əyalətinə tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentlik Aparatının struktur bölmələrinə, eləcə də regional bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

**5.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

Baş Dövlət Baytarlıq Müfəttişi
Chief Veterinary Officer